# AZƏRBAYCAN XALQININ TARİXİNDƏ ƏN PARLAQ RƏHBƏR VƏ ŞƏXSİYYƏT

***(Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin anadan olmasının 60 illiyinə aid ictimai, sosial-siyasi və analitik təhlil)***

Azərbaycan xalqının tarixində çoxsaylı parlaq şəxsiyyətlər az olmamışdır. Onlardan biri də, Ali Baş Komandan, Azərbaycan Respublikasının PrezidentCənab İlham Əliyevdir. Təsadüfi deyildir ki, dünya şöhrətli, ictimai-siyasi xadim və dövlət adamı olan, ümummilli lider Heydər Əliyev 15 oktyabr 2003-cü ildə Azərbaycan xalqına tarixi müraciətində demişdir:

"Mən öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm. Üzümü sizə - həmvətənlilərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd mənim siyasi varisim, Yeni Azərbaycan Partiyasının sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatı gözəl bilən, və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".

Göründüyü kimi, həqiqət naminə qeyd etmək istərdim ki, müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti, möhtərəm cənab Prezident İlham Əliyev barədə 15 oktyabr 2003-cü ildə dolğun, məzmunlu və perspektivli fikirlər həyatda özünü tam mənası ilə doğrultmuşdur.

Bəli, 18 il bundan öncə 2003-cü il 15 oktyabrda keçirilən prezident seçkilərində Azərbaycan xalqının mütləq böyük əksəriyyətinin dəstəyini qazanaraq müstəqil ölkəmizdə prezident seçilən İlham Əliyev öz hakimiyyətinin başlanğıcı ilə, həm də ümummilli lider Heydər Əliyev ilə inkişaf və tərəqqi edən müstəqil Azərbaycan Respublikasının iltibah dövrünün yeni mərhələsinin bünövrəsini, təməlini qoydu. Məhz yuxarıda qeyd olunan həmin seçkilərin məntiqi nəticəsi olaraq, mərd, igid, tolerant, dözümlü, beynəlmiləlçi Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevdən sonra ölkədə hakimiyyətdə özünün möhkəm, inandırıcı İlham Əliyevi gördü.

Bu da təsadüfi deyildir ki, Cənab Prezidentimiz İlham Əliyev özünün çoxsaylı həm daxili, həm də xarici rəsmi dövrü mətbuat, kütləvi informasiya orqanlarına verdiyi müsahibələrində tez-tez təkrar etdiyi "...Azərbaycan xalqının dəstəyi mənə güc, qüvvət və ruh verir. Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, iradəsidir" - sözləri möhtərəm Cənab Prezident İlham Əliyevin 2008-ci il oktyabr ayında keçirilən prezident seçkilərində də qalib çıxmasını şərtləndirən mühüm və başlıca amil onun daim öz doğma xalqının yanında olması, əziz, mərd, igid və qədirbilən xalqının isə onun alternativsiz etimad ünvanı kimi görməsi və tanınması idi. Bu məqsədlə real, inandırıcı tarixi faktlara müraciət etmək, söykənmək, arxalanaraq fikrimizi isbat etmək istərdik.

2008-ci il prezident seçkilərində 88,77 faiz səslə prezident seçilən İlham Əliyev 2013-cü ilin 9 oktyabr seçkilərində 84,54 faiz, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə isə 86,02 faiz səslə Azərbaycan vətəndaşları yeganə inam və etibar mənbəyi olduğunu göstərdi.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə qazandığı ən böyük uğur, qələbə və zəfər onun erməni faşizminə və vandalizminə qalib gəlməsidir.

Burada, yeri gəlmişkən, faşizmin və vandalizmin mürtəce mahiyyəti haqqında tarixi faktlar əsasında bəzi mülahizələrimizi bildirmək istərdik.

Faşizm - nasional-sosializm pərdəsi altında çıxış edir. Faşizm beynəlxalq irticanın zərbə qüvvəsi kimi özünü göstərmişdir; faşist dövlətləri, ilk növbədə isə Hitler Almaniyası İkinci Dünya müharibəsini törətmişdir. Hitler Almaniyasının məqsədi bəşəriyyət qarşısında keçmiş sovet xalqının tarixi xidməti əsasən bundan ibarət idi ki, alman faşixtlərinin darmadağın edilməsində həlledici rol oynamışdır. İkinci Dünya müharibəsində faşist dövlətlərinin tam məğlub edilməsinə baxmayaraq, erməni faşist dövləti faşizmi dirçəltməyə çalışır. Erməni faşizmi ideologiyada faşist irrasionalizmdir, ifrat şovinizm və irqçilikdir, cəhalətpərəslik və antihumanizmdir.

Vandalizm isə real həyatda olan qiymətli, yeraltı və yerüstü maddi sərvətlərin, habelə ümumbəşəri, mənəvi dəyərlərin məhv edilməsi anlamını verir. Erməni vandalizmi də erməni faşizmi kimi mürtəce mahiyyətli, xarakterli məna, məzmun və mündərəcə kəsb edir.



Haşiyə. Aşağıda erməni faşizminin və vandalizminin mürtəce mahiyyətini açıb göstərən, səciyyələndirən bəzi mülahizələr və çoxsaylı konkret, inandırıcı faktlar qeyd olunacaqdır.

Vandalizm real həyatda olan tükənməz maddi və ümumbəşəri mənəvi sərvətlərin qəsdən məhv edilməsi kimi məna, məzmun və mündərəcə kəsb edir.

Ermənistanda meydana gələn faşizm və vandalizm bəşər tarixində alternativi olmayan mürtəce mahiyyət, xarakter daşıyan məfhumlardır.

Erməni faşizminin mürtəce mahiyyətini aşağıda göstərilən, qeyd olunan çox acınacaqlı və dəhşətli faktlar da bir daha sübut edir.

Erməni faşistləri və vandalları işğal etdikləri ərazilərdə Qarabağın incisi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşadakı muzeylərdə saxlanılan, hifzedilən Xan qızı, dünya şöhrətli xanəndə Bülbülün, Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəylinin büstlərini güllələmiş, dövlət adamı, şair Molla Pənah Vaqifin türbəsini, min illərlə yaşı olan nadir meşələri, yaşıl ormanları, neçə şirin yuxuda yatan körpələrin, hamilə qadınlarının və ahıl qocaların qanına qəltan edərək, məhv etmişlər. Erməni faşistləri və vandalları həmçinin Allahın hesab olunan çoxsaylı məscidlərdə donuz töləsinə çevirmiş, onları yerlə-yeskən etmişlər. Deməli, erməni faşistləri və vandalları vahid təkcə Allaha ən çox inanc bəsləyən, inanan müsəlmanlara, türklərə və azərbaycanlılar deyil, bütövlükdə insanlığa qatı düşmən kəsilmişlər. Bütün bunlar erməni faşizminin və vandalizminin mürtəce mahiyyətini sübut, və təsdiq edən çoxsaylı, real, inandırıcı faktlardır, misallardır, nümunələrdir.

Azərbaycan xalqının dəstəyini hər zaman yüksək dəyərləndirən möhtərəm İlham Əliyevin 2018-ci il aprel ayında keçirilən Prezident seçkilərində söylədiyi aşağıdakı fikirlər diqqəti xüsusilə cəlb edir:

"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə əmin etmək istəyirəm ki, bundan sonra da Xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm... Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciətedərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim".

Möhtərəm Prezidentimiz çox hörmətli İlham Əliyev hakimiyyətdə olduğu illər ərzində doğma, müstəqil Azərbaycandakı yalnız, təkcə inkişaf etdirməklə kifayətlənmədi. Dövlətimizin başçısı, rəhbəri ölkəmizin beynəlxalq əlaqələrini genişləndirməklə yanaşı, həm də dünya miqyasındakı nüfuzunu artırmaqla, onu həm də bəlkə də Yer planetində müstəqil xarici siyasət yürüdən ölkə, etibarlı tərəfdaş kimi də tanıtmış oldu. Erməni faşizminə, mənfur düşmənə qarşı 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanı bütün siyasi təzyiq və təhdidlərə sinə gərməsi də dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin beynəlxalq aləmdə cəmiyyətli siyasət yürütməsinin bilavasitə məntiqi nəticəsidir. Dünya şöhrətli ictimai, siyasi xadim və dövlət adamı olan Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasını çox böyük uğurla davam etdirən İlham Əliyevin hakimiyyətdə olduğu dövr ərzində Azərbaycanın bütün sahələr üzrə tərəqqisini şərtləndirən ən başlıca amil həm də ölkəmizin müstəqilliyinin, təhlükəsizliyinin qorunub saxlanılması olmuşdur. Müstəqil Azərbaycana Ümummilli Lideri Heydər Əliyevdən miras qalan ictimai-siyasi sabitliyi qorunub saxlanılması İlham Əliyevin hakimiyyətinin ilk günlərindən başlıca və əsas hədəf olmuşdur. Möhtərəm Prezident çıxışların birində demişdir: "Bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik. Bu sabitlik bizə imkan verəcəkdir ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək".

2018-ci ildə yenidən Prezident seçildikdən sonra andiçmə mərasimində çıxış edən möhtərəm İlham Əliyev ötən dövrü səciyyələndirərkən qeyd etmişdir ki, son 15 ildə dünyadakı vəziyyət təhlükəsizlik baxımından çox gərgin keçsə də, dünyanı müxtəlif bölgələrində, o cümlədən bizim ölkəmizdə çox təhlükəli prosseslər baş versə də, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır.

Azərbaycan daxili risklərin əksəriyyətini aradan qaldırır, xarici risklərin özünü qoruya bilmişdir. Milli təhlükəzisliyimizin qorunmasını dövlətin tərəqqisi üçün başlıca şərt hesab edən cənab İlham Əliyevin verdiyi vədi yerinə yetirməsinin məntiqi nəticəsidir ki, Azərbaycan xalqı bu gün də ölkə daxilində daxili risklərdən, xarici təhdidlərdən qorunaraq sabitlik şəraitində rahat, arxayın yaşaya bilir, bacarır. Bu baxımdan Azərbaycan Respublikası Milli Məclisinin deputatı hörmətli Elşad Mirbəşiroğlunun aşağıdakı fikri diqqəti xüsusi ilə cəlb edir. O, Milli Məclisinin iclaslarının birindəki çıxışında demişdir ki, Azərbyacan Prezidenti İlham Əliyev dünyanın çoxsaylı liderlərindəndir ki, onun bütün istiqamətlər üzrə həyata keçirdiyi əksər fəaliyyətinin uğurlu sayıla bilər. Bu hər şeydən əvvəl ondan irəli gəlir ki, Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrlə bilavasitə çox aydın təsəvvürlərə, dəqiq məlumatlara, biliklərə və baxışlara malikdir. Möhtərəm Cənab Prezident İlham Əliyev irəli atdığı hər bir addım barədə hər şeydən əvvəl çox ciddi konseptual əsasları barədə düşünməyi, dəqiq hesablamalar aparmağı bacarır. ən əsası odur ki, o, dövlət və milli maraqlar uğrunda xüsusi, böyük iradə, prinsipiallıq nümayiş etdirir. Bu baxımdan bütün dünya çox yaxşı bilir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev milli maraq məsələlərində, o cümlədən mənfur erməni işğalçılarının faşistlərinə və vandallarına qarşı mübarizədə heç bir halda güzəştə və barışığa getmir.

*(Davamı 4-cü səhifədə)*

# AZƏRBAYCAN XALQININ TARİXİNDƏ ƏN PARLAQ RƏHBƏR VƏ ŞƏXSİYYƏT

*(Əvvəli 3-cü səhifədə)*

Möhtərəm Prezidentimiz İlham Əliyevin müstəqil Azərbaycana səriştəli və peşəkarcasına rəhbərliyi dövründə maddi vəziyyəti, durumu və mənəvi-siyasi köklü şəkildə dəyişmişdir. Yeri gəlmişkən, onu da əlavə edərək, qeyd etmək istərdik ki, həm ölkə daxilində, həm beynəlxalq miqyasda şəxsən möhtərəm Prezident İlham Əliyev tərəfindən irəli sürülən addımlar müvafiq olaraq ölkəmizin - Azərbaycanın bütün vətəndaşlarının və xalqının rifah halının yaxşı təmin olunmasına bilavasitə xidmət edir. Məhz Prezident İlham Əliyev sayəsində Cənubi Qafqazda təhlükəsizlik məsələlərinin həllində qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyub Ərdoğanın yaxından köməkliyi də az olmadı.

Millət vəkili hörmətli Elşad Mirbəşiroğlunun çıxışlarının birində dediyi kimi, "Nəzərə almaq lazımdır, Ermənistanın işğalçılıq siyasəti bölgədə təhlükəsizlik sisteminin qurulması üçün çox ciddi maneə olub. Buna baxmayaraq, Azərbaycan Prezidentinin səyləri nəticəsində Cənubi Qafqazın təhlükəsizlik məsələlərin həlli istiqamətində müəyyən addımlar atmaq mümkün olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan həm bölgə səviyyəsində, həm də beynəlxalq çərçivədə təhlükəsizliyin təmin olunmasının əsas iştirakçılarından olub. Azərbaycanın təşəbbüsləri və birbaşa iştirakı ilə bölgədə həyata keçirilən strateji layihələr ölkəmizin beynəlxalq iştiraqçılıq imkanlarını genişləndirməklə yanaşı, müəyyən təhlükəsizliyin təminatlarını da şərhləndirdi. Belə ki, Ulu Öndər Heydər Əliyevin müdrikcəsinə yanaşması, Prezident İlham Əliyevin isə siyasi iradəsi və qətiyyəti nəticəsində fəaliyyətə başlamış Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri ölkənin milli iqtisadiyyatının formalaşmasında olduqca təsirli rol oynadı. BTC və reallaşdırılan digər layihələr həm də birbaşa ölkəmizin təhlükəsizliyi məsələləri ilə bağlı idi. Belə ki, bu layihələrdən əldə olunan gəlirlər Azərbaycan Ordusuna müasir standartlar çərçivəsində qurulmasına və inkişaf etdirilməsinə imkan verdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alması ölkəmizin iştirakçısı olduğu enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi ilə sıx bağlıdır".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyub Ərdoğanın oktyabr 2021-ci il tarixdə Füzuli Beynəlxalq Hava Limanının açılışında, Asiya ilə Avropanı birləşdirən Şərqi Zəngəzur dəhlizinin açılışı ilə əlaqədar olaraq Zəngilan rayonunda olması, burada həyata keçirilən tədbirlərdə fəal iştirak etməsi iki qonşu dövlətin beynəlxalq imicini, nüfuzunu dünya miqyasında daha da artırmış oldu.

Yeri gəlmişkən, xüsusi olaraq qeyd etmək istərdik ki, güclü ordu təhlükəsizliyin əsas təminatçısı, diplomatiyanın, hərəkətverici qüvvəsidir. Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev əsasən bu amillərə söykənərək ölkəmizin təhlükəsizlik sisteminin çox böyük uğurla formalaşdırmağı bacarmış oldu. Bir daha qeyd etmək lazımdır ki, güclü ordu təhlükəsizliyini əsas, başlıca təminatçısı, diplomatiyanın hərəkətverici qüvvəsidir. Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev əsasən bu amillərə söykənərək, arxalanaraq ölkəmizin təhlükəsizlik sisteminin çox böyük uğurla formalaşdırmağı bacardı. Milli təhlükəsizliyin həm siyasi, həm hərbi, həm də iqtisadi komponentlərinin yaratmaqla, milli maraqlarımızın qorunması və təmin olunması üçün bütün şəraiti hədəflərə, məqsədlərə çox böyük uğurla çatdı.Azərbaycanın ən ciddi, köklü təhdid yaradan amil rolunda mənfur, təcavüzkar, işğalçı Ermənistanın işğalçılıq, talançılıq siyasəti çıxış edirdi.

Möhtərəm Cənab Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasətinin mənfi nəticələrinin aradan qaldırmağı və ərazi bütövlüyünü təmin etməyi özünün çoxcəhətli fəaliyyətinin başlıca və əsas istiqaməti kimi müəyyən etmişdir. Bu baxımdan daxili təhlükəsizlik məsələlərinin səmərəli və uğurla həll olunması üçün ehtiyat mənbələrindən düzgün istifadə etməyi üstünlüyü çox vacib sayır və hesab edirdi. Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyev özünün bütün strateji baxımlarına söykənərək, arxalanaraq bütün təhlükəsizlik tədbirlərini çox böyük uğurla həyata keçirdi. Müstəqil ölkəmizin ərazi bütövlüyünü tam mənası ilə təmin etməklə, milli təhlükəsizliyimizə olan bütün mühüm təhdidlərin aradan qaldırılmasına nail oldu. Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin uğurlu iqtisadi siyasəti hamıda və hər kəsdə çox böyük həsəd yaratdı.

Azərbaycanda yalnız ictimai-siyasi, sosial-mənəvi sahələrdə deyil, həm də iqtisadi sferada da aparılan uğurlu, güclü islahatlar müasir, sivil dövləti yaradılmasını nəzərdə tuturdu.



Bu nöqteyi-nəzərdən ölkəmizdə müstəqil Azərbaycanda aparılan bütün sahələrdə, o cümlədən xüsusilə siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır.

Müstəqil Azərbaycandakı iqtisadi inkişaf surətindən razı qalan möhtərəm Prezident İlham Əliyev sosial-iqtisadi göstəricilərini bizə də gələcəyə çox böyük ümidlərlə baxmağa imkan verdiyi fikrindədir, əzmindədir. Dövlətimizin rəhbəri öz çıxışlarında dəfələrlə bildirib ki, məqsədyönlü aparılan uğurlu, doğru-düzgün siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı. O, bu münasibətlə qeyd etmişdir ki, biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinə sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, müstəqil Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Milli Məclisin digər millət vəkili iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişi söyləmişdir ki, dövlətçilik ənənələrinə əsrlərlə yaşı olan Azərbaycan tarixinin müxtəlif dövrlərində bölgədə böyük bir coğrafiyanı əhatə edən ərazilərdə güclü dövlət qurmağı və ədalətli idarəetmə sistemini yaratmağı hər zaman dövlətçiliyə əsaslanan milli ideyaya sahib olduğunu göstərib və tarixin müxtəlif mərhələlərində bu ideyanı güclü dövlət qurmaq formasında reallaşdıra bilmişdir. Dayanıqlı və möhkəm dövlət quruculuğunun əsas, başlıca tələbi milli inkişafın məqsəd və prioritetləri kimi çıxış edən milli ideyanın var olmasıdır. Müasir Azərbaycan dövlətçiliyinin əsas bel sütunu xalqın "azad və güclü olmaq" arzusu ilə formalaşan milli ideyanın güclü dövlətçiliyə çevirməyi bacaran Ulu Öndər Heydər Əliyev dühası və siyasəti olub.

Komitə sədri, hörmətli millət vəkili belə hesab edir ki, bütün uğurlarımızın əsas mənbəyi, bu strategiyanın və yolun inamla davam etdirilməsi və onun genişləndirilməsidir. Məhz bu yolun başlıca davamçısı olan Prezident İlham Əliyevin 18 illik fəaliyyəti Azərbaycana tarixdə heç bir zaman olmayan uğurlar gətirmişdir. Azərbaycan xalqı hər zaman arzuladığı hədəfinə nail oldu, uzun müddət işğal altında olan torpaqlarımız, təhqir olunan mənəvi sərvətlərimiz, tarixi, dini, mədəniyyət ocaqlarımız işğaldan azad edildi: "xalqımızın qaməti dikəldi, başı uca oldu, layiq olduğu şərəfli, layiqli həyata qovuşdu. Azərbaycan xalqı 2020-ci il 8 noyabrda sanki yenidən doğuldu. Artıq o, qalib xalqdır, onun dövləti ən güclü dövlətdir, onun başçısı, rəhbəri ən qüdrətli və ağıllı rəhbərdir. Strateji, səbirli, uzaq görən, soyuqqanlı, cəsarətli, xalqa arxalanan idarəetmə sistemini qurmaqla İlham Əliyev bu möhtəşəm qələbəyə, zəfərə 2003-cü ildən başlayaraq addım-addım irəliləyərək nail oldu. Bütün ehtiyat mənbələrinin "Qarabağ" hədəfinə yönəltməklə dünyanın belə gözləmədiyi qələbəyə nail oldu. Azərbaycan xalqının mənfur düşmənlərinin başını əzdi".

Millət vəkilinin sözlərinə əlavə edərək qeyd etmişdir ki, bu uzun yolda onun iqtisadi siyasəti, əldə etdikləri uğurlu, müsbət nəticələr hər zaman hər kəsdə coşqun həsəd yaratdı. Son 18 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artaraq inkişaf dinamikasına görə dünyada lider ölkə oldu, bölgədə ən çox xarici sərmayə və texnologiya cəlb edən dövlət çevrildi. Ölkəmiz iqtisadi imkanlarımızın ixracı qarşısında olan bütün sədləri aşdı və keçdi, habelə əsl iqtisadi müstəqilliyə nail ölkə oldu. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, TANAR, TAP layihələri məhz onun səyləri və fədəkarlığı ilə reallaşdı. Vaxtı ilə bəlkə də infrastruktur cəhətdən mühasirə şəraitində olan Azərbaycan hazırda "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi, qovuşduğu yeganə ölkədir. Öz iqtisadi siyasətini bölgələrin yüksəlişi ilə başlayan möhtərəm prezident İlham Əliyev Azərbaycanın tarazlı inkişafında mühüm nəticələr əldə etdi. Ölkəmizin hər bir bölgəsi artıq həyat şəraitinin yaxşılaşması, abad infrastruktura sahib olmaq göstəricilərinə görə dünya reytinqlərində qabaqcıl yerlərə sahibdir.

Milli Məclisdə komitə sədri millət vəkili insan kapitalının inkişaf etdirilməsinin, milli kadrların hazırlanmasının daim dövlət başçısının xüsusi diqqət mərkəzində olduğunu da xüsusi vurğulamışdır. Onun sözlərinə görə, məhz möhtərəm prezidentin sözlərinə görə, bilavasitə onun işıqlı, nurlu ideyaları nəticəsində ölkəmizdə 18 ildə yeni bir gənclik yetişdi. O, ölkəmizin gələcək inkişafını məhz insan kapitalının üzərində qürur və möhtəşəm uğurlar əldə edir.

Uğurlu uzaqgörən siyasəti nəticəsində əldə olunan neft kəmərləri hesabına ölkəmizdə qeyri-neft sektorunun güclənməsi, sahibkarlığın inkişafı onun sürətli və əhatəli iqtisadi islahatlarının başlıca hədəfi oldu. Davamlı və müntəzəm aparılan islahatlar nəticəsində iqtisadiyyatımızın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektoru oldu. Geniş və hərtərəfli şəffaflaşma prosesi, sürüşdürmənin aradan qaldırılması iqtisadiyyatımızın dayanıqlı inkişafına güclü, böyük bir təkan verdi.

18 ildən bir qədər artıq prezidentin fəaliyyəti dövründə İlham Əliyevi ən çox fərqləndirən xüsusiyyət, cəhət onun sosial dövlət konsepsiyasını qurmalı, bunun nəticəsində əldə olunan hər bir uğurun xalqın maddi-rifah halının, güzaranın daha da yaxşılaşdırılmasına, onun təhlükəsizliyini qorunmasına və xoşbəxt gələcəyə ümidlərinin daha da artmasınasərf etməsi oldu. Bu, ağıllı, uzaqgörən siyasətin nəticəsində ölkəmizdə yoxsulluq və işsizlik səviyyəsi dəfələrlə azaldı, sosial ödənişlərin həcmi dəfələrlə artdı layiqli həyat şəraitinin səviyyəsinə görə Azərbaycan bölgədə bir çox ölkələri geridə qoydu.

*(Davamı 5-ci səhifədə)*

# AZƏRBAYCAN XALQININ TARİXİNDƏ ƏN PARLAQ RƏHBƏR VƏ ŞƏXSİYYƏT

*(Əvvəli 4-cü səhifədə)*

Möhtərəm Prezidentimiz İlham Əliyev əldə olunan güclü, iqtisadi imkanları həm'də ölkəmizin müttəfiqlərinin və dostlarının sayının artmasına, düşmənlərimizin neytrallaşmasına, dünyada Azərbaycanın nüfuzunun artmasına sərf etmiş və etməkdədir. Bütün bunların məntiqi nəticəsində müstəqil Azərbaycan həqiqətləri bütün dünyaya yayıldı, yaradıcı xalq kimi layiq olduğumuz rəğbətə, hörmətə sahib olduq, hazırda dünyanın aparıcı təşkilatlarına səylə rəhbərlik etməkdəyik.

Prezident İlham Əliyev iqtisadi imkanlarını güclü ordu qurmağa sərf etməklə Azərbaycan əsgərinə və hər bir azərbaycanlıya qalib gəlmək olar. İnamı aşıladı, bəxş etdi. Məhz güclü Ali Baş Komandan, rəşadətli əsgər və fədakar xalq hesabına biz 44 günlük Vətən müharibəsində zəfər çaldıq, qalib gəldik.

Dünyanın ən mürəkkəb, çətin dövrü sayılan, hesab olunan COVİD-19 pandemiyası zamanında, vaxtında məhz möhtərəm cənab prezident İlham Əliyevin çevik idarəetməsi və böhranlı vəziyyətlərdə onun qəbul etdiyi doğru -düzgün qərarlar, imzaladığı sərəncamlar nəticəsində nisbətən az itki ilə vəziyyəti idarəetməyi bacardıq. Müstəqil Azərbaycan dövlətinin iqtisadi gücü hesabına heç kimdən kömək, yardım istəmədən, pandemiyadan əziyyət çəkən vətəndaşlara və sahibkarlara dövlət dəstəyi göstərilir və iqtisadi enişin kəskin olmasının qarşısı alınır.

"Bü gün Azərbaycan dövləti hərtərəfli inkişaf etmiş, güclü dövlətdir. Qarşımızda həm də çox ciddi çağırışlar yaranmaqdadır. İqtisadiyyatın davamlı inkişafı, vətəndaşlarımızın daha yaxşı, firavan yaşaması, müasir elmi-texniki vasitələrdən səmərəli istifadənin genişləndirilməsi kimi çağrışlara nail olmaq yolunda Azərbaycan davamlı olaraq sürətlə irəliləyir, addımlayır. Möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə əldə olunan çoxsaylı müsbət nəticələr bir daha göstərdi ki, müdrik dövlət başçısı, rəhbəri, xalqın ona olan inamı, etibarlı, sevgisi, məhəbbəti, hörməti ilə istənilən arzuya nail olmaq mümkündür. İnanmaq lazımdır ki, biz möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə hələ daha çox uğurlara imza atacağıq". Vədinə tam və mükəmməl olaraq əməl edərək Dağlıq Qarabağ münaqişəsinin tarixli arxivinə göndərən Prezident.

Ötən müddət ərzində Birləşmiş Millətlər Təşkilatının Qarabağ münaqişəsi ilə bilavasitə bağlı qəbul etdiyi, işğalçı erməni silahlı qüvvələrinin Azərbaycanın zəbt olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması tələbinin qoyulduğu 4 məlum Qətnamənin icra olunması fövqəl dövlətlərin təcavüzkar faktına laqeyd münasibətinin nəticəsi idi. Buna güvənən, arxalanan faşist, vandal, mənfur Ermənistan ötən müddət ərzində nə BMT-nin məlum 4 Qətnaməsinə, nə də Beynəlxalq İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi digər Beynəlxalq təşkilatların bəyanatlarına, qərar və qətnamələrinə məhəl qoymadı.

Təhlükəsizlik Şurasının bir sıra Qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, Azərbaycana gəldikdə 27 ildən artıq bir müddət ərzində icra olunmamış qalmışdır. Bu isə ikili standartların bariz nümunəsidir" deyən möhtərəm Prezident İlham Əliyev dünya birliyinin göz yumduğu, güc dövlətlərinin həll etmək istəmədiyi münaqişənin Azərbaycanın hərbi gücü ilə həll edə bildi.

Xüsusilə qeyd etmək lazımdır ki, hələ 2003-cü ildə ilk dəfə möhtərəm prezident İlham Əliyev dövlət başçısı seçildikdən sonra andiçmə mərasimində çıxış edən ölkə başçısı xalqına Azərbaycanın öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəyik vədini vermişdi. O, bu münasibətlə demişdir: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və məcburi köçkün öz doğma yurd-yuvalarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç zaman belə bir vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmasını və bu problemin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarının nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Bu vədinə əməl edərək dövlətimizin başçısı, möhtərəm prezidentimiz İlham Əliyev Azərbaycanın milli mənafeyimizin naminə, məkrli, mənfur, xarici qüvvələrin, o cümlədən xüsusilə nankor qonşularımızın - erməni faşistlərinin və vandallarının təzyiqlərini göz önünə alaraq, torpaqlarımızın işğalına son qoyan Ali Baş Komandan düşmən olan faşist, işğalçı Ermənistanı döyüş meydanında məğlub etməklə illərlə davam edən Qarabağ müharibəsini tarixə qovuşdurdu. Qədim və şanlı tariximizə Zəfər sözü yazan bu yenilməz sərkərdə, dövlətimizin doğma vətənimiz Azərbaycanın ərazi bütövlüyünü təmin edən xilaskar oldu.

Milli Məclisin digər bir deputatı Elxan Məmmədov da qeyd etmişdir ki, İlham Əliyev prezidentliyinin ilk günündən erməni faşistlərinin və vandallarının təcavüz altında olan torpaqlarımızın azad ediləcəyini, bir qarış da olsa belə, işğal altında qalmayacağını, ərazi bütövlüyümüzün bərpa olunacağını bəyan etmişdir. Dövlətimizin rəhbəri, başçısı, möhtərəm prezidentimiz İlham Əliyevin ilk gündən təcavüz, işğal altında olan torpaqlarımızın azad ediləcəyini, bir qarış torpağımızın belə işğal altında qalmayacağını, ərazi bütövlüyümüzün bərpa olacağını bəyan etmişdir. Dövlət başçısı 2020-ci ildə verdiyi vədinə sadiq qaldı, ona əməl etdi: Möhtərəm Prezidentimiz İlham Əliyev prezidentlik dövrünün ilk günündən, ona əməl edən bir prezident kimi məşhurlaşdı, tarixə düşdü. Bu, xalqda çox böyük inam yaratdı ölkə başçısı, dövlət rəhbəri qarşısına ali məqsəd qoydu və bu niyyət dəaydın idi: torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaq. Lakin bunun üçün bir sıra işlər, planlar, məqsədlər, niyyətlərlə yanaşı, paralel aparılması idi. Bu hədəflər də prezident İlham Əliyev tərəfindən doğru-düzgün müəyyən edildi. Ilk növbədə, ölkə daxilində möhkəm, çox ciddi sabitlik yaradıldı, iqtidar-müxalifət arasında münasibətlər xeyli dərəcədə səngidi, yumşaldı. Müstəqil Azərbaycandakı, yəni ölkədəki sabitlik, xalqın inamına və güclü iqtisadiyyata söykənərək, arxalanaraq ordu quruculuğu sahəsində işlər uğurla davam etdirildi. Ordunun modernləşdirilməsi, nizam-intizamın gücləndirilməsi, artırılması, döyüş qabiliyyətinin yüksək olması daim xüsusi diqqət mərkəzində saxlanılırdı. Çoxsaylı, uğurlu hərbi təlimlər nəticəsində ordu gündən-günə döyüş qabiliyyətini artırdı, gücləndirdi. Azərbaycan ordusu təcrübəli, inamlı, vətənpərvər zabitlər əsasında formalaşdırıldı. Çünki müasir hərbi texnikaların idarə edilməsi üçün bilikli hərbiçilər lazım idi.



Yuxarıda adı çəkilən millət vəkili daha sonra qeyd etdi ki, prezident İlham Əliyev 2003-cü ildən gənclərin hərbi vətənpərvərlik, mübarizlik yağı düşmənlə barışmaz ruhda yetişdirilməsini qarşıya məqsəd qoymuşdu: "Torpaqlarımızı yağı düşməndən -ermənidən azad edə bilməyimiz üçün bu problem gənclərimizin qarşısında daim qalması idi. Bu doğru-düzgün yanaşma "44 günlük Vətən Müharibəsində"öz müsbət nəticəsini göstərdi. Digər bir çox vacib məqamı o idi ki, cənab İlham Əliyev prezidentliyin ilk günündən beynəlxalq qurumlarla çox fəal işlər aparmağa başladı. Siyasi, ideoloji, informasiya sahəsində çox böyük uğurlar əldə etdi. Möhtərəm prezident İlham Əliyevin Azərbaycan həqiqətləri bütün dünyaya çatdırılması, saxta, uydurma erməni yalanın ifşa edilməsi sahəsindəki uğurları əvəzedilməzdir. Biz bunu Vətən müharibəsi başlamasından əvvəl də, müharibə dövründə də möhtərəm prezident İlham əliyevin xarici kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələrində də görürdük".

Azərbaycan torpaqlarını işğaldan azad olunduğunu, dövlətimizin, vətənimizin ərazi bütövlüyünün təmin edildiyini vurğulayan həmin millət vəkili bu gün bütün dövlət, vətən sərhədlərimizdə öz sərhədçilərimizin dayandığını, azad olunmuş ərazilərdə yenidənqurma işlərinin aparıldığını söyləyir. O, çox yaxın gələcəkdə məcburi köçkünlərin hissə-hissə öz doğma yurd-yuvalarına qayıdışının gözlənildiyinin də qeyd edir: "Müharibə küllü miqdarda vəsait tələb edir. Müharibənin hər saniyəsi puldur, xərcdir. Biz 44 günlük çox ağır müharibədən qalibiyyətlə çıxmağı bacardıq. Azərbaycan müharibədən yeni çıxan ölkə olmasına baxmayaraq, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərini çox qısa zaman ərzində aparmağa başlayıb. Bu dövlətin iqtisadi gücündən xəbər verir. Artıq azad edilmiş ərazilərdə bir-neçə yerdə 4 zolaqlı yollar çəkilir. Ağdamda, Şuşada və digər yerlərdə yenidənqurma işləri çox sürətlə aparılır. Prezident İlham Əliyevin apardığı bütün bu işlər yağı düşmənə-ermənıyə və onun havadarlarına bir daha mesaj verir ki, bu torpaqların əsl sahibi bizik. Biz yaradıcı, amma sizin müdafiə etdiyiniz Ermənistan isə dağıdıcı, işğalçı dövlətdir".

Möhtərəm prezident İlham Əliyev hələ ilk dəfə prezident seçilərkən xalqına Azərbaycanın gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəyi vədini vermişdi. Xalq birliyinə güvənən, arxalanan dövlət başçısı bunun üçün Azərbaycanda bütün imkanların - təbii sərvətləri, insanpotensialının və ən önəmlisi isə xalqın iradəsinin olduğunu bildirmişdir: "Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanın zəngin, qüdrətli dövlətə çevirəcəyik" deyən İlham Əliyev məhz birlikdə olduğumuz zaman güclü dövlət qura biləcəyimiz fikrində heç zaman yanılmadı. Bu birlik bizə güclü Azərbaycanı, güclü ordunu və ən nəhayət həsrətində olduğumuz qələbəni-bəxş etdi.Şuşanın azad edilməsindən sonra 2020-ci il noyabrın 8-də "Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" fikirləri ilə xalqa müraciət edən İlham Əliyev bütün bunları yalnız bir atanın oğluna etdiyi vəsiyyət olaraq yerinə yetirmədi. Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və çox böyük uğurla davam etdirən böyük lider həm də bir prezident kimi xalqına verdiyi vədi yerinə yetirdi, ona olan inamın qarşısına kəsilmək imkan vermədi, onu getdikcə daha da gücləndirdi. Bu gün Azərbaycan bu inamın sayəsində güclənərək inkişaf edir.

***Tamara RÜSTƏMOVA,***
***AMEA A.A.Bakıxanov adına***
***Tarix İnstitutunun***
***"Azərbaycan Respublikasının***
***tarixi şöbəsi"nin kiçik elmi işçisi***

*e-mail:tomarustemova88@gmail.com*
*mobil tel: (+994 70) 211 08 14*